# Sənətə məhəbbət nümunəsi

**Şərqdə muğam dəsgahlarını tamam-kamal ifa edən ilk qadın sənətkar, səhnəmizin lirik Leylisi, ustad xanəndə, muğam və mahnılarımızın ilkinliyini ustalıqla qoruyaraq nəsildən-nəslə ötürən, xalq artisti Sara xanım Qədimovanın yaradıcılıq yolu yeni nəsillər üçün əsl vətənpərvərlik, fədakarlıq və sənətə sədaqət nümunəsi olmuşdur.**



*Sara Qədimova Heydər Əliyevlə (1971-ci il)*

O, xalqımızın qəlbində əbədi məskən salmış sənətkar olaraq mahnı və muğamlarımızın ifaçısı kimi Cabbar Qaryağdıoğlu, Bülbül, Seyid Şuşinski, Xan Şuşinski, Rəşid Behbudov, Həqiqət Rzayeva kimi qüdrətli sənətkarların sırasında layiqli yer tutmuşdur. Ecazkar səsi ilə yeni həyat verdiyi mahnı və muğamlar Azərbaycan musiqi sənətinin qızıl fonduna həmişəlik daxil olmuşdur.

Sara xanımın böyük sənətinin sirlərini öyrənərkən belə təsəvvür yaranır ki, onun səsi Allah vergisidir. Eyni zamanda, istedadın qanla, genlə nəsildən-nəslə keçdiyini nəzərə alsaq, demək olar ki, onda ifaçılıq istedadının yaranmasında atasının böyük təsiri olmuşdur. Eyni zamanda, bu xanımda böyük fədakarlıq, daim öz üzərində işləmək, sənətini cilalamaq, təkmilləşdirmək, sələflərindən öyrənmək, zəhmətkeşlik, çalışqanlıq var idi.

Atası Bəbiş kişi əslən Ağdam rayonunun Gülablı kəndindən idi. Bir qarabağlı kimi musiqiyə, xüsusilə muğamlarımıza böyük maraq göstərirdi. Muğamları yaxşı bilir, hərdən pəsdən oxumağı da var idi. İslam Abdullayev, Zülfü Adıgözəlov, Qurban Pirimov, Xan Şuşinski tez-tez Bəbiş kişinin evinə toplaşar, muğamlardan və xalq mahnılarından söhbət açardılar. Bu mühit balaca Saranın sənət seçimində mühüm rol oynayır. Uşaq yaşlarından mahnı ifa etməyə başlayan Sara Qədimovanın gələcəkdə müğənni olacağına şübhə yeri qalmırdı. Sara orta məktəbdə və tibb texnikumunda bayram konsertlərində mahnılar oxuyardı. Onun bu qabiliyyəti görkəmli xanəndə Zülfü Adıgözəlovun diqqətindən yayınmadı. Zülfü bəy 16 yaşlı Saranı Əbilov adına Mədəniyyət Evində rəhbərlik etdiyi musiqi dərnəyinə cəlb etdi. O, yeniyetmə qıza xalq mahnılarını öyrətdi. Zülfü bəy Saranın ifasını çox bəyənirdi. O deyirdi ki, sən gələcəkdə hökmən böyük səhnəyə çıxmalısan, filarmoniyaya getməlisən.

1938-ci ildə bədii özfəaliyyət kollektivlərinə respublika baxışı keçirilirdi. Əbilov adına Mədəniyyət Evinin solisti Sara Qədimovanın bu baxışda oxuduğu "Qatar" muğamı münsiflər heyətinin üzvləri Üzeyir Hacıbəylini, Hüseynqulu Sarabskini, Əhmədxan Bakıxanovu məftun etdi. Elə oradaca Üzeyir bəy Saranı A.Zeynallı adına Musiqi Məktəbində dərs deyən H.Sarabskiyə tapşırdı və dedi ki, bundan sonra sənin nəzərlərin bu gənc qızın üzərində olsun.

1938-1941-ci illərdə Sara xanım H.Sarabskinin sinfində muğamdan dərs alır, muğam ifaçılığını xeyli təkmilləşdirir və oxumaq təcrübəsini get-gedə artırır.

1941-ci il sentyabr ayında indiki Musiqili Komediya Teatrının binasında, maraqlı bir konsert olur. H.Sarabski şagirdləri ilə "Rast" muğamını ifa edirlər. Muğamın bəm və orta hissələrini Şövkət Ələkbərova, Gülağa Məmmədov, Hüseynqulu Sarabski, zil yerlərini isə Sara ifa edir. Yazıçı Qılman İlkinin bu konsertlə bağlı xatirələrindən:

- Müharibə yenicə başlamışdı. Hamı dərd-sər içində idi. Həmin konsertdə Üzeyir Hacıbəyli ön sırada əyləşmişdi. H.Cavidin ailəsi də onun yanında oturmuşdu. Mən də çox çətinliklə konsertə bilet tapa bildim. "Rast" muğamı böyük alqışlarla oxunub qurtardıqdan sonra Hüseynqulu Sarabski səhnədə bir qədər irəli keçib gənc ifaçıları təqdim etdi və dedi: "Şövkətlə Gülağanın üslubu estrada ifaçılığına daha yaxındır. Sara isə sırf xanəndədir". Üzünü onlara tutdu və dedi ki, hər biriniz öz yolunuzu müəyyən etməlisiniz.

Üzeyir bəy və Hüseynqulu Sarabski istedadlı şagirdinin gözəl səsini və muğam ifaçılığını qoruyub saxlamasına çalışırdılar. Məhz H.Sarabskinin son dərəcə həssas, qayğıkeş münasibəti, rəhbərliyi sayəsində Sara peşəkarlığa yiyələnir.

Həmin vaxtdan etibarən və sonralar da gənc Sara muğamların və mahnıların mahir ifaçısı kimi Ü.Hacıbəylinin gözündə bir nömrəli sənətkarlardan birinə çevrilir.

Sara xanım mahnı ifaçılığı ilə yanaşı, bütün əsas muğamlarımızı ifa etmiş yeganə qadın xanəndə idi. Ona qədər qadın müğənnilər yalnız "Şahnaz", "Qatar" və "Segah" muğamlarını oxuyardılar. 1943-cü ildə - 21 yaşındaykən Hüseynqulu Sarabski və Zülfü Adıgözəlovdan "Rast", "Mahur-hindi", "Bayatı Şiraz" və digər çətin muğamları öyrənib oxumağa başladı. Hətta bir dəfə Cabbar Qarayağdıoğlu və Seyid Şuşinskinin yanında Qurban Pirimov və Qılman Salahovun müşayiəti ilə "Mahur-hindi" muğamını ifa edib, onların xeyir-duasını aldı. Əvvəllər bu muğamları qadın müğənnilər ifa etməzdilər. Belə bir fikir kök salmışdı ki, guya qadın səsi bu muğamları ifa etməyə qadir deyil. Bütün bu stereotipləri ilk dəfə sındıran Sara xanım Qədimova olmuşdur.

Yüksək virtuoz ifa imkanlarına baxmayaraq, Sara xanımın əsas qüdrəti muğamlarda idi və yaradıcılığında muğam əsas yerdə dururdu. Bu qədim milli musiqi sahəsində o, çox uca bir zirvəyə yüksəlmişdir. Sara Qədimova muğamın əsas kökünü, saflığını və klassik ifa tərzini saxlamağa olduqca diqqət edirdi. O, sözün həqiqi mənasında, monumental muğam ifaçısıydı.

1965-ci ildə xanəndələrin çox ehtiyatla müraciət etdikləri son dərəcə mürəkkəb "Şur dəsgahı" və "Cahargah" muğamını oxumağa başladı. "Cahargah" muğamını Seyid Şuşinskidən, "Şur dəsgahı"nı isə Hacıbaba Hüseynovdan və Bəhram Mansurovdan öyrənmişdi. "Şur dəsgahı" xanəndənin muğamda əsas möhürüdür. Sara xanım həm də "Şur dəsgahı"nı öz kökündə oxuyan ilk qadın ifaçı olub. "Şur dəsgahı"nı oxumaq müğənnilərə çox çətindir. Buna baxmayaraq, Sara dəsgaha görə həm qəzəl seçməkdə, həm də onu ifa etməkdə mahir sənətkar idi. Muğam aləmində qadın müğənnilər arasında bu, görünməmiş işdir. "Görünməmiş iş" adlandırılan bu uğurun əsas səbəbi xanəndənin görünməmiş səsində idi. Seyid Şuşinski qeyd edirdi ki, Sara xanımın səs diapazonu çox geniş olduğu üçün, onun səsi muğam ifaçılığına çox yatımlıdır. Ona görə də o, musiqimizin incisi olan mürəkkəb muğamlarımızın ən məşhur ifaçılarından biri kimi şöhrət qazanmışdı. Xanəndələrdən Rübabə Muradova, Tükəzban İsmayılova, Qəndab Quliyeva və başqaları "Xaric segah" muğamını öyrənərkən, Sara xanımın "Xaric segah" muğamına müraciət etmişlər. Uzun illər onu tarda müşayiət etmiş Bəhram Mansurovun dediyinə görə, Sara xanımın səsi və nəfəsi tarın bütün pərdələrinə çatır, hətta ötüb keçirdi, belə bir səs diapazonu ilə muğam oxuması heç bir azərbaycanlı qadın xanəndələrdə görünməmişdi və belə bir səs registrinin nəticəsiydi ki, o, əsasən kişi xanəndələrin oxuduğu "Rast", "Bayatı-Şiraz", "Mahur-hindi" və "Cahargah" dəsgahlarında da onlardan geri qalmırdı. Bir sözlə, Sara Qədimova muğamda nə oxuyubsa, hamısını məktəb səviyyəsində oxuyub və xoşbəxtlikdən, əksər ifaları səs xəzinəmizdə qorunub saxlanır. Yüksək musiqi duyumu və klassik şeir savadı olduğundan muğamın estetik-fəlsəfi mahiyyətini ustalıqla çatdırırdı. Muğamda istifadə olunan bütün qəzəlləri əzbərdən bilirdi və heç bir qadın xanəndə onun qədər qəzəl bilmirdi.

Xanəndələr və müğənnilər öz aralarında Sara xanımı "qəzəlxan" adlandırırdılar. Çünki o, savadlı xanəndə idi. Əvvəllər oxuduğu tibb texnikumunu əla qiymətlərlə bitirdiyinə görə, imtahan verməden tibb universitetinə qəbul olunmuşdu. Akademik Zərifə Əliyeva ilə bir qrupda oxuyurdu. Musiqi dünyası onu daha çox cəlb etdiyinə görə dördüncü kursda institutu buraxıb, öz taleyini həmişəlik incəsənətə bağladı.

**Ardı 11-ci səh.**

# Sənətə məhəbbət nümunəsi

Əvvəli 10-cu səh.

O, yüzdən çox qəzəl bilirdi. Bir dəfə ifa etdiyi qəzəli, ikinci dəfə oxumazdı. Füzulinin, Nizaminin, Nəsiminin, Hüseyn Cavidin, Mikayıl Müşfiqin, Seyid Əzim Şirvaninin, Əliağa Vahidin, İran şairi Əbülhəsən Racinin, Qarabağ şairlərindən Məşədi Əyyub Bakinin və Natəvanın çoxlu qəzəllərini bilirdi. Hətta kişi xanəndələrə qəzəl lazım olanda Sara xanımdan alırdılar.

Sara xanımı zəmanəsinin xanəndələrindən fərqləndirən daha bir üstün cəhəti var idi. İti hafizəsi olan Sara xanım ən mürəkkəb qəzəli 4-5 dəfə oxuyandan sonra əzbər öyrənirdi. Az-az adamların yaddaşı bu qədər güclü ola bilərdi. Qəzəllərin sözlərini hərifbəhərif tələffüz edərdi. İkinci bir belə xanım xanəndə tapmaq çətindir ki, qəzəlləri bu dərəcədə səlis bilsin və ifa etsin. Əruz vəznini və əruz qafiyəsini yaxşı bildiyindən qəzəlləri də gözəl və düzgün oxuyardı.

Gənc Sara Üzeyir Hacıbəylinin ümid bəslədiyi müğənnilərdən biri idi. Ondan daim muğayat olar və qayğı ilə yanaşardı. Gənc qızın tərbiyəsi və inkişafı məsələsini nəzərə alardı. Hüseynqulu Sarabskinin muğam sinfini bitirdikdən sonra o, 1941-ci il yanvar ayının 17-də 19 yaşında ikən Azərbaycan Dövlət Filarmoniyasına solist qəbul olundu. Filarmoniya o illərdə mədəni-maarif müəssisələri arasında xüsusi çəkisi olan bir sənət ocağı idi. Ora müqəddəs bir məbədgah kimi baxılırdı. Çalıb-oxumağı bacaranlar filarmoniyaya solist olmaq üçün sinov gedirdilər. Hələ bu yaşda heç kəs böyük səhnədə oxumağa cürət etməzdi. Onunla bir sinifdə muğamları öyrənən Şövkət Ələkbərova və Gülağa Məmmədov, həmçinin Fatma Mehrəliyeva və Əbülfət Əliyev Sara xanımdan 5 il sonra - 1945-ci ildə filarmoniyaya solist qəbul ediləcəkdilər. Əlbəttə, Üzeyir bəyin razılığı olmadan filarmoniyaya heç kəs solist qəbul oluna bilməzdi. Tarzən Qurban Pirimov deyərdi ki, Sara filarmoniyaya gələndə, burada 7 nəfər xanəndə və tarzən var idi. Onların hamısının yaşı 40-dan çox idi. 19 yaşlı qızın filarmoniyaya gəlişi böyük maraq doğurdu. Bu bəstəboy, deyib-gülən, şən çöhrəli qız filarmoniyaya bir canlılıq, hərarət gətirmişdi. Az sonra Sara filarmoniyanın sayılıb-seçilən "ulduzlarından" biri oldu. Uzun illər Üzeyir bəyin katibi olmuş Ramazan Xəlilovun xatirələrindən: "Sara çox geniş səs imkanlarına malik olduğuna görə Üzeyir Hacıbəyli ona daim istiqamət verir və düzgün yol göstərirdi. Onun ailə tədbirlərində Bülbüllə yanaşı gənc Sara da iştirak edirdi. Üzeyir Hacıbəyli "Qara göz" və "Şəfqət bacısı" mahnılarını qadın müğənnilər arasında ilk dəfə Sara xanıma etibar etmişdi. O, respublikanın bütün bayram tədbirlərində Sara Qədimovanı konsert proqramlarına daxil edirdi. Hələ uşaq ikən ata-anasını itirib tənha qaldığına görə Üzeyir bəyin arvadı Məleykə xanım da onu öz qızı kimi sevərdi.

Sara xanım filarmoniyada yenicə işə başlamışdı ki, Böyük Vətən müharibəsi başladı. Gənc qız hələ müharibənin nə olduğunu bilmirdi. Hər gün məhəllələrdə oğlunu, ərini, qardaşını davaya yola salan anaların, bacıların və gənc qadınların vay-şivəni eşidilərdi.

Filarmoniyanın solisti kimi tez-tez cəbhə bölgələrində olmalı idi. Qışda qarın, yağışın və palçığın içində əsgərlər qarşısında çıxış etmək hər müğənninin işi deyildi. Çox gənc olan, 19 yaşlı yeniyetmə qızın kişi kimi qorxmadan cəbhə bölgələrinə getməsi, sonralar onun xasiyyətində bu keyfiyyəti qabartdı. O çətin günlərdə əsgərlərin qarşısına cəsarətlə çıxması, səhnədə mərdimərdanə dayanması, muğam və mahnıları böyük şövqlə ifa etməsi böyük maraq doğururdu.

Bir dəfə Səməd Vurğun, Qurban Pirimov, rəqqasə Leyla Bədirbəyli, akademik Heydər Hüseynov, Vera Şirye, Zülfü Adıgözəlovla birlikdə Sara Qədimova cəbhə bölgəsinə getmişdi. O dövrdə Dövlət Mahnı və Rəqs Ansamblının rəqqasəsi olan Leyla Bədirbəylinin xatirələrindən:

"Qatarla yol gedirdik. Səməd Vurğun gənc Saraya yaxınlaşıb soruşdu: "Qızım, gözəl səsin var. Bir neçə konsertində olmuşam. Oxumağın xoşuma gəlir. Cəbhədə əsgərlər üçün nə oxuyacaqsan?"

Sara ayağa qalxıb imtahan verən şagird kimi əllərini yanına saldı: "Segah" muğamını, Üzeyir bəyin "Şəfqət bacısı", "Kürdün gözəli", "Qubanın ağ alması" mahnılarını" - deyə cavab verdi.

Səməd Vurğun nə fikirləşdisə, elə bizim yanımızda cibindən "Avrora" siqaretini çıxarıb, onun üstünə bir şeir yazıb Saraya uzatdı: "Bu şeiri sənə həsr edirəm. Onu əzbərlə və "Segah" üstündə oxu" - dedi.

*Yenə qılıncını çəkdi üstümə,*
*Qurbanı olduğum o ala gözlər.*
*Yenə cəllad olub durdu qəsdimə,*
*Qələm qaş altından piyalə gözlər.*
*Gərdəni minadır, boyu tamaşa,*
*Ay da həsrət çəkir o qələm qaşa.*
*Bir cüt ulduz kimi verib baş-başa,*
*Yanıb şölə saçır camala gözlər.*

Sara Qədimova cəbhədə verilən konsertlərin hamısında "Segah" muğamını S.Vurğunun yuxarıdakı şeiri ilə başlayırdı. Kim nə deyir desin, bizim hamımızda belə bir fikir yarandı ki, Səməd Vurğun o şeiri Sara xanıma həsr etmişdir.

Sara xanımın ifasında "Segah" muğamına şair məftun olurdu. O deyirdi ki, bu muğamı Saranın ifasında dinləyəndə ruhum dincəlir.

1956-cı ildə Səməd Vurğun ağır xəstə idi. May ayının 12-də Opera və Balet Teatrında şairin 50 illik yubileyi qeyd olunurdu. Səməd xəstə olduğu üçün tədbirdə iştirak edə bilmirdi, yubileyə radioda qulaq asırdı. Yubileyin bədii hissəsi S.Vurğunun sevdiyi muğam və mahnılardan təşkil olunmuşdu. Sara xanım yubiley konsertində "Segah" muğamında şairin yuxarıdakı şeirini ağlaya-ağlaya oxudu. Sara xanım ömrünün son günlərinə qədər hər dəfə Xavər xanımla Aybəniz onunla görüşərkən qucaqlaşır və hönkürhönkür ağlayardılar.

1946-cı ildə Üzeyir Hacıbəylinin təklifi ilə Sara Qədimova Moskva şəhərində keçirilən estrada müğənnilərinin Ümumittifaq müsabiqəsinə göndərildi. O, burada Nizaminin qəzəli ilə "Şahnaz" muğamını yüksək səviyyədə ifa edib, müsabiqənin laureatı diplomunu aldı. Bundan bir il sonra isə o, yenidən Moskvaya dəvət olunaraq Nizaminin yubileyinə həsr olunmuş dövlət konsertində yenə də "Şahnaz" muğamı ilə çıxış etdi.

Sara xanımın repertuarında mahnı yaradıcılığı əsas yer tuturdu. Əvvəllər yalnız xalq mahnılarını oxuyardı. 1950-ci ildən sonra o, bəstəkarlarla tez-tez görüşür, onlarla yaradıcılıq əlaqəsi saxlayırdı. O, şeirə, sözə qarşı həssas, son dərəcə məsuliyyətli idi. Qadın müğənnilər içində ən zəngin repertuarı olan sənətçilərdən biri sayılırdı. Onda unikal musiqi duyumu və möhkəm hafizə vardı. İstənilən musiqini, mətni bircə dəfə dinləməklə yaddaşına həkk edir, mahnının mahiyyətini, bəstəkarın istək və məramını dərhal qavrayır, ən başlıcası, mahnıya bağlanaraq oxuyurdu.

Sara xanım populyarlıq qazanmaq, dinləyicini necə olur-olsun cəlb etmək istəyən, başqa sözlə, asan şöhrət dalınca gedən müğənni deyildi. Onun ifa etdiyi "Göygöl", "Nə deyim", "Nədən oldu", "Tar çalan oğlan", "Picıldaşır ləpələr", "Ay işığında", "Könül tərəneləri", "Bulaq üstə gedən gözəl", "Küsüb getdi", "Qonşu qız" və bir çox mahnılarda həm dərin xəlqilik, həm də son dərəcə fərdilik vardı. Bu da müğənninin sənətinə həmişə özünəməxsusluq gətirirdi.

Ötən əsrin 50-60-cı illəri şöhrətinin və məşhurluğunun zirvəsi idi. Çox dəbdə olan müğənni sayılırdı. Xalq onu çox sevirdi. Mağazaların vitrinlərində, evlərin divarlarında, sürücülər maşınlarının kabinələrində onun şəkillərini asırdılar. Onun səhnədə duruşunda və ifa tərzində bir xanımlıq ədası var idi.

Keçən əsrin 50-70-ci illərində Sara Qədimova xarici ölkələrə çoxsaylı qastrollara başlayır. Onu hər yerdə Azərbaycan musiqisinin fövqəladə və səlahiyyətli səfiri adlandırırdılar. Rəşid Behbudovdan sonra xarici ölkələrdə Azərbaycan musiqisini təbliğ etmək sahəsində birincilik Sara xanımda idi. 1959-cu ildə "Bakı" qəzetinə müsahibə verən Azərbaycan Dövlət Filarmoniyasının direktoru, bəstəkar Tofiq Quliyev yazırdı:

"İndiyədək xarici ölkələrdə böyük müvəffəqiyyətlə çıxış edən Sara Qədimovanın növbəti səfərinin marşrutu İndoneziya, Nepal, Seylon və Pakistandır. Onu bu ölkələrdə tarzən Əliağa Quliyev, kamançaçı Tələt Bakıxanov və dəfçalan İrşad Məmmədov müşayiət edəcəklər.

O, 22 ölkədə (Mərakeş, Efiopiya, Sudan, Yəmən, İraq, Misir, Livan, Liviya, Türkiyə, İran, İndoneziya, Qana, Malayziya və s.) qastrolda olmuşdur. Sara xanım hansı ölkəyə gedirdisə, o ölkənin mahnılarını tezliklə öyrənib ifa edirdi. 1960-cı ildə Misirdə qastrolda olarkən ərəb bəstəkarı və müğənnisi Fərid Əl-Ətrasın "Xəyalımın nuru" mahnısını ifa etmişdir. Konsertə gözləri tutulmuş məşhur ərəb müğənnisi Um-Gülsüm, mahnının bəstəkarı Fərid Əl-Ətras, Livandan Fehruz xanım gəlmişdilər. Rəşid Behbudovun xatirələrindən: "Sara xanım xarici ölkə xalqlarının mahnılarını heç bir çətinlik çəkmədən, asanlıqla öyrənirdi. Onun Qahirədə oxuduğu "Xəyalımın nuru" mahnısı hamını valeh etdi. Konsertdə iştirak edən onlarca gənc səhnəyə çıxıb bu mahnının sədaları altında "Tanqo" rəqsini oynayırdı. Bu mahnı Sara xanım tərəfindən alqışlar altında dəfələrlə təkrar ifa olundu. Bundan qiymətli nə ola bilərdi?! Həmin mahnı 1960-cı ildə Misirdə "İlin ən yaxşı mahnısı" elan olundu".

Rəşid Behbudov sözünü davam etdirərək deyirdi ki, bizi, xüsusilə Sara xanımı Qahirədə çox isti qarşıladılar. Bizə məlumat verdilər ki, Prezident Camal Abdul Nasir ailəsi ilə birlikdə konsertə gələcəkdir. Məncə, bu diqqət onun Bakıda "Leyli və Məcnun" tamaşasına baxması ilə əlaqədar olmuşdur.



Sara Qədimova Süleyman Dəmirəllə (1996-cı il)



Sara Qədimova Leyli rolunda (1962-ci il)

Sara xanım Qvineyada səfərdə olarkən "Rast" muğamını ifa etmişdir. Sara xanım danışırdı ki, muğamı ifa edəndə böyük həyəcan keçirirdim. Düşünürdüm ki, qvineyalılar muğamı başa düşməyəcəklər. Lakin belə olmadı. İfam alqışlarla qarşılandı. Baxıb gördüm ki, Əliağa Quliyevin gözlərindən sevinc yaşları axır. Sonra "Sili" Qvineya mahnısını oxudum. Necə qarşılandığımı dilə gətirməkdə, təsvir etməkdə çətinlik çəkirəm.

1963-cü ildə Sara xanım İndoneziyada 3 aya yaxın bir dövrdə qastrolda oldu. Cakartada sovet inşaatçılarının tikdikləri 100 min nəfərlik stadionda - "Cakarta gölməçəsi"ndəki konsertdə Prezident Sukarnonun sevdiyi mahnını ifa edərkən, hamı Sara xanıma qoşulub həmin mahnını birlikdə oxumuşdu. Müğənninin səsinə valeh olan Sukarnonun həyat yoldaşı Hartini Sara xanımı evinə qonaq dəvət etmiş və ona qiymətli hədiyyələr bağışlamışdır.

Sara xanımın əməyi və istedadı dövlət və xalq tərəfindən yüksək qiymətləndirilirdi. Onun xalq arasında yaxşı nüfuzu vardı. Görkəmli şəxsiyyətlər onun barəsində ürəkaçan fikirlər söyləmişlər:

Heydər Əliyev: "Sara Qədimova xalqın böyük sənətkarıdır. Azərbaycan incəsənəti hamısı onda əks olunub. Onun ecazkar səsi ilə yeni həyat verdiyi mahnı və muğamlar Azərbaycanın musiqi sənətinin qızıl fonduna həmişəlik daxil olmuşdur. Həyatımızda olan bütün gözəlliklər onun yaradıcılığında əks olunur. Sara xanım öz xalqını və vətənini ürəkdən sevən böyük və bənzərsiz sənətkardır. O, Azərbaycan incəsənətinin canlı tarixidir. Xalqımız Sara xanımla fəxr edir".

Süleyman Dəmirəl: "Sara xanımı ilk dəfə 1967-ci ildə Bakıda dinləmişəm. O gündən xeyli vaxt keçmişdir. Bu illər ərzində dünyanın bir çox ölkələrində də rəsmi səfərdə olmuşam. Bu 27 ildə Sara xanımın ətirli səsi qulağımdan getmir. O, vətənpərvər müğənnidir. Türk dünyasının ən parlaq sənət ulduzlarındandır".

Üzeyir Hacıbəyli: "Saranın gözəl səsi var, çox çalışqandır. İfaçılığa böyük maraq göstərir. O, hələ gəncdir. Ona istiqamət vermək, yol göstərmək, kömək etmək lazımdır".

Səməd Vurğun: "Saranın ifasında "Segah" muğamı çox xoşuma gəlir. Bu muğamı onun ifasında dinləyəndə ruhum dincəlir. Mən arzu edirəm ki, onun ağzından hər dəfə yeni "Segah"lar eşidək".

Qurban Pirimov: "Sara Qədimovanın sənəti və səhnə mədəniyyəti böyük məktəbdir. O, bütün zamanların sevimli müğənnisidir. Sara xanımın solo konsertləri yüksək səviyyədə, tamaşaçı heyranlığı və böyük alqışlarla keçirdi".

Sara xanım 1996-cı ildə Türkiyənin Prezidenti Süleyman Dəmirəlin dəvəti ilə Türkiyədə onun şəxsi qonağı oldu. Orada istəmişdilər ki, Çankayada Prezident iqamətgahında Azərbaycan mahnılarını oxusun. Sara xanım çox narahat olmağa başladı. 10 ildən çox idi ki, zil səsi ilə oxumurdu. Çıxışından əvvəl əllərini göyə qaldırıb Allahından imdad istəyir ki, məni bu qərib yerdə xar etmə. Tanrı onun dualarını eşitdi. Cahangir Cahangirovun "Qarabağ" və "Aişə" türk mahnılarını, axırda isə "Qarabağ şikəstəsi"ni oxudu və Nazim Hikmət barədə xatirələrini danışdı.

1956-cı ildə Opera və Balet Teatrının yeni Leylilərə, təzə səsə böyük ehtiyacı yaranmışdı. Operaya gedən tamaşaçılar xeyli azalmışdı. Azərbaycan mədəniyyətinin nəhənglərindən olan Fikrət Əmirov, Mehdi Məmmədov, Niyazi və Bəhram Mansurov Sara xanımı Leyli və Əsli rolunda oynamaq üçün Opera və Balet Teatrına dəvət etdilər. Respublikada məşhur müğənni və xanəndə kimi tanınan Sara xanım, çox tərəddüdlə razılıq verdikdən sonra gərgin məşqlərə başladı.

Sara Qədimova ilk dəfə olaraq 1957-ci il fevralın 17-də Ələvsət Sadıqovla birlikdə "Leyli və Məcnun" operasında səhnəyə çıxır. Sonralar isə bir qayda olaraq, bu operada baş rolları Əbülfət Əliyevlə birlikdə ifa edərdi.

Sara xanımı Leyli rolunda görmək üçün respublikanın əksər rayonlarından onlarca adam Opera və Balet Teatrına axışırdı. Təbii gözəlliyi, aktyorluq məharəti, muğamları kamil bilməsi, salonun hər tərəfindən səsinin açıq-aydın eşidilməsi və Leylinin sözlərini səlis və düzgün ifa etməsi gözəl və füsunkar bir harmoniya yaradırdı. Sara xanım - Leyli bəzəkdüzəyə aludə olmadan səhnədə gözəl eşqdən alışıb-yanan lirik Leyli obrazı yaratdı. Sara xanımın Leylisi bu tamaşaya baxanların yaddaşına əbədi həkk olunmuşdur. Onda aktyorluq qabiliyyəti yüksək olduğundan fərqli bir Leyli obrazı yaradırdı. Leyli rolunu əvvəllər bir çox aktyorlar oynamışdır, amma Sara xanım bu obraza öz naxışını vurdu.

Sara xanımın özü müqtədir sənətkar, gənc müğənnilər və xanəndələr üçün bir məktəb olmasına baxmayaraq, daim Xan Şuşinskidən, Seyid Şuşinskidən, Zülfü Adıgözəlovdan, Qurban Pirimovdan, Mirzə Mansurdan, Bəhram Mansurovdan muğamın sirlərini yorulmadan öyrənirdi. Bu sənətkarlar da Sara xanımı bir xanəndə kimi qəbul edir, ona həmişə öz məsləhətlərini verirdilər.

1963-cü ilin may ayının 2-də Sara Qədimovaya Azərbaycan Respublikasının xalq artisti fəxri adı verildi. Mayın 31-də, böyük müğənninin ad günündə Əbülfət Əliyev başına bir dəstə sənətkar yığıb qəfildən, xəbərsiz-ətərsiz, Sara xanımı hər iki hadisə ilə əlaqədar təbrik etmək üçün onlara gəlirlər. Qurban Pirimov, Seyid Şuşinski, Zülfü Adıgözəlov, Həqiqət Rzayeva, Xan Şuşinski, Əliağa Vahid, Yavər Kələntərli, Firudin Şuşinski, Mirzə Mansur, Bəhram Mansurov və onun arvadı Münəvvər xanım, İldırım Həsənov, Ələvsət Sadıqov, Xanlar Haqverdiyev, Hacı Məmmədov, Məmmədağa Muradov, akademik Aslan Aslanov və rəqqasə Roza Cəlilovanı qapının astanasında görəndə Sara xanım özünü itirir, çaş-baş qalır. Bir azdan yaxın qonşular Mədinə Gülgün və Azər Balaşoğlu da gəlirlər. Otağın kiçikliyi və evdə hazır xörəyin olmaması Sara xanımı çıxılmaz vəziyyətdə qoyur. Bu sənətkarlar nərd oynamağa başlayır, Sara xanım isə Mədinə Gülgünlə birlikdə "Qarabağ plov"u dəmləyirlər.

Sara xanımın evi bir anlıq musiqi məclisinə dönür. Zülfü Adıgözəlovun oxuduğu "Bayatı Şiraz" muğamı məclisə yaraşıq verir. Böyük ustadlar Sara xanımı təbrik edir və ona xoş arzularını bildirirlər.

Sara xanım özündən böyük sənətkarları uca tutur, onlara hörmət-izzətlə yanaşardı. Ustad sənətkarlar da onun sənətini yüksək qiymətləndirər və xətrini çox istəyərdilər. Seyid Şuşinski kimi ciddi və az danışan bir adam Sara xanımı "bizim cəngavər qızımız" adlandırardı.

Sara xanım 400-dən artıq xalq və bəstəkar mahnısı və 11 muğam ifa etmişdir. Hazırda radionun qızıl fondunda 7 muğam və 200-dən çox mahnı qorunub saxlanılır. Sara Qədimova yaşlı nəslin dinlədiyi və pərəstiş etdiyi bir müğənnidir.

Sara xanımın yüksək ali şəxsiyyəti var idi. Çox ciddi, zəhmli, zabitəli xanım idi. Müğənnilər onun yanında özünü yığışdırar, artıq-əskik bir ifadə işlətməyə cürət etməzdilər. O deyərdi ki, hər bir müğənni şəxsiyyət olmalıdır. Xan Şuşinski zarafata salıb deyərdi: "Allah bizim əvəzimizə Saranı kişi yaratmalı idi". Sonra isə əlavə edərdi: "Qadın olmasına baxmayaraq bizim hamımız (artistləri nəzərdə tuturdu) ondan qorxuruq. Moskvada Stalinin, Bakıda Mircəfər Bağırovun, filarmoniyada isə Sara xanımın dad əlindən".

Sara xanımın ən mərd xüsusiyyətlərindən biri də o idi ki, ömründə dilinə yalan söz gəlməzdi, görmədiyi hadisəni qətiyyən danışmazdı. Bu illər ərzində onun kiminsə qeybətini qıldığını, kiminsə qarasına danışdığını görmədim və eşitmədim. Kimin nə nöqsanı, qəbahəti vardırsa çəkinmədən, qorxmadan düz onun gözünün içinə deyərdi, kindən-küdurətdən, qərəzdən uzaq bir adam idi.

Onun ölüm xəbərinin yayılması minlərlə insanı sarsıtdı. Vida mərasimi Bakıda son illərin ən qələbəlik, ən möhtəşəm dəfn mərasimi idi.

Sara xanım birinci Fəxri xiyabanda dəfn olundu. Məzarı üstünə qoyulan gül-çiçək dəstəsinin sayı-hesabı yox idi. O, bir ulduz idi, səmadan yerə enmiş və 67 illik səhnə fəaliyyətindən sonra yenidən göyə qayıtmışdır.

***Çingiz FƏRƏCOV,***
***xalq artisti, Sara Qədimova irsinin tədqiqatçısı***